RESPUBLİKA 26 may 2019-cu il

# Kiyev şəhərində - Azərbaycan-Ukrayna Dostluq parkında İmadəddin Nəsiminin heykəlinin açılışı

Dünyanın poeziya xəzinəsinə dəyərli töhfələr bəxş etmiş dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi Ukrayna poeziyasevərləri tərəfindən də böyük sevgi ilə qeyd edilir. Bu baxımdan, paytaxt Kiyev şəhərində Nəsiminin abidəsinin ucaldılması bir daha onu deməyə əsas verir ki, ölməz şairin zəngin yaradıcılığı və fəlsəfi düşüncələri bəşəri duyğulara söykənir. Böyük Azərbaycan şairinin abidəsi ölkəmizin Ukraynadakı səfirliyinin və Kiyev şəhər meriyasının birgə təşəbbüsü ilə ucaldılıb. Abidənin açılış mərasimində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Kiyev Şəhərinin meri Vitali Kliçko, Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev, Ukraynanın mədəniyyət və incəsənət xadimləri, Azərbaycan disporunun nümayəndələri və media təmsilçiləri iştirak ediblər. Tədbir Azərbaycan və Ukraynanın dövlət himnlərinin









səsləndirillməsi ilə başlayıb. Açılış mərasimində çıxış edən Kiyev şəhrinin meri Vitali Kliçko son bir ildə Kiyevin mərkəzində Müslüm Moqamayevin və İmadəddin Nəsiminin heykəllərinin açılmasını ölkələrimiz arasındakı mədəni əlaqələrin inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirib: "Bu gün Azərbaycan və Ukrayna dövləti dahi şair və filosof İmadəddin Nəsiminin Kiyev şəhərində abidəsinin açılışı ilə aralarında olan məsafəni daha da yaxınlaşdırdı. Mən çox şadam ki, tədbirə qatılanlar abidənin açılışını hər iki ölkənin dövlət himnlərinin sədaları altında, əllərini ürəklərinin üzərinə qoyaraq izlədilər. Bu isə onu göstərir ki, hər bir Azərbaycanlı Ukraynanı, ukraynalılar isə Azərbaycanı öz evi kimi qəbul edirlər. Mən son illər bir neçə dəfə Bakıda olmuşam. Həqiqətən də, son illər Azərbaycan böyük inkişaf yolu keçib. Etiraf edim ki, bizim ordan nümunə götürəcəyimiz çox məsələlər var. Bizim qarşımızda duran əsas məqsəd isə ondan ibarətdir ki, ölkələrimiz arasında vaxtaşırı mədəniyyət və idman sahələrində layihələr həyata keçirtməklə ikitərəfli əlaqələrin inkişaf arenasını daha da genişləndirik".

Tədbirdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycanla Ukrayna arasında tarixi dostluq əlaqələrinin möhkəm əsaslar üzərində qurulmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən söz açıb. Bu nəcib missiyanın Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyini vurğulayıb. Eldar Əzizov ölkələrimiz müttəqillik əldə etdikdən sonra Bakıda, dahi Ukrayna şairi Taras Şevçenkonun, Lesya Ukrainkanın, Kiyev şəhərində isə ulu öndər Heydər Əliyevin, Müslüm Maqomayevin, Səməd Vurğunun və İmadəddin Nəsiminin heykəllərinin ucaldıldığını bildirib. Ukraynada dahi Azərbaycan şairi İmadəddin Nəsiminin xatirəsinə göstərilən diqqətə görə dost ölkənin rəhbərliyinə minnətdarlığını bildirib. Qeyd edib ki, Nəsimi klassik dünya poeziyasında öz dəst-xətti ilə seçilən, yaradıcılığında Azərbaycan dilinin inkişafına xüsusi yer ayıran, ideyaları uğrunda son nəfəsinə qədər mübarizə aparan tarixi şəxsiyyət olub.

Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev Kiyev şəhərində dahi Azərbaycan şairinin abidəsinin ucaldılmasına görə Ukraynanın dövlət rəhbərliyinə və Kiyev şəhərinin merinə minnətdarlığını bildirib. Qeyd edib ki, Ukraynanın paytaxtında ölməz şairin abidəsinin ucaldılması Prezident İlham Əliyevin Nəsiminin 650 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncama dəyərli töhfədir. Tədbirdə çıxş edən, Ukraynanın Xalq rəssamı, tanınmış heykəltaraş Seyfəddin Qurbanov Nəsimi kimi tarixi bir şəxsiyyətin heykəlinin müəllifi olmasına görə fəxarət hissi keçirtdiyini vurğulayıb. Nəsiminin unudulmaz xatirəsinə işıq saçan tədbirdə şair Şəhriyar Der Gerani ədibin qəzəllərindən parçalar səsləndirib. Sonra Nəsiminin heykəlinin üzərindəki ağ örtük götürülüb. Əbədiyaşar şairin abidəsinin önünə tər çiçəklər qoyulub.

Biz Azərbaycan-Ukrayna Dostluq parkında Azərbaycanın xalq şairi, ürəklərdə işıq heykəlinə çevrilən İmaməddin Nəsiminin əzəmətli heykəlinin açılışında iştirak edən insanlarla görüşüb söhbət etdik və onların ürək sözlərini olduğu kimi qələmə aldıq.

**Nəcəf Əhmədov: (Ukraynanın Dnepropetrovsk şəhərindəki Azərbacanlılar Konqresinin sədri):**

—Nəsimi poeziyası hər yerdə sidq ürəklə sevilir. Klassik Azərbaycan poeziyası kəhkəşanında İmadəddin Nəsimi ulduzu onilliklər, yüzillkilər keçsə də, parlaq yanmaqdadır. Bu il Azərbaycan Respublikasının Prezindeti İlham Əliyev tərəfindən elan olunmuş Nəsimi ilində şairin yubileyinin keçirilməsi ana dilində yaranmış klassik Azərbaycan poeziyasının bayramı kimi qeyd olunacaqdır. Payına tariximizin ən mürəkkəb və qeyri-sabit dövründə yaşamaq düşən Nəsimi mövcud problemlərin mənqənəsində boğulsa da, azadlıq eşqi onun yaradıcı ilhamının ən mühüm daşıyıcı faltoru kimi ortaya çıxmışdır.

**Akif Gülməmmədov: (Ukrayna Azərbaycanlıları Konqresi Ali Məclisinin sədri, Ukraynanın Əməkdar energetiki):**

—Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi Ukraynada yaşayan 500 mindən çox soydaşımız tərəfindən rəğbətlə qarşılanır. Vurğulamaq lazımdır ki, Nəsiminin həyat fəlsəfəsində insanın daxilən təmizlənməsi ön plana çəkilirdi. Kiyev şəhərində İmadəddin Nəsiminin heykəlinin ucaldılması Ukrayna-Azərbaycan dostluğunun bariz nümunəsidir.

**İlhamə Allahverdiyeva (Ukrayna Azərbaycanlı Gənclər Birliyinin sədri):**

—İmadəddin Nəsimi dahi Azərbaycan şairidir. O, öz bədii-poetik obrazı leksikası ilə klassik ədəbiyyatımızın fəlsəfi ideyalarının təbliğ olunmasında, insanın dünyanı dərk fəlfəfəsində əvəzsiz rol oynamışdır. Nəsimi poeziyası müasirliklə daha yaxından səciyyələnməkdədir.

**Vladimir Tokar (Ukraynanın Sumı Vilayəti Deputatlat Şurasının sədri):**

—Azərbaycan-Ukrayna dostluğunun təməli, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Fəxrlə demək olar ki, qədim Kiyev şəhərinin ayrı-ayrı küçələrində Heydər Əliyevin, Səməd Vurğunun, Müslüm Maqomayevin, İrpen şəhərində akademik Zərifə Əliyevanın heykəl və abidəsinin ucaldılması təqdirəlayiq haldır.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı may ayının 24-də Kiyev şəhərində Nəsiminin heykəlinin açılışı Azərbaycan və Ukrayna xalqlarının tarixinə qızıl hərflərlə yazıldı.

**Möhsüm QƏDİROĞLU,**
**"Respublika" qəzetinin Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri.**